

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 195 (23.357)

17 oktyabr 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Koreya Respublikası Milli Assambleyasının sədri Mun Hi-sanqın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, bizim əlaqələrimiz uğurla inkişaf edir. Şadam ki, Koreya-Azərbaycan əlaqələri yeni pilləyə qalxıb. Siyasi əlaqələrimiz yüksək səviyyədədir və sizin səfəriniz bunu bir daha təsdiqləyir. Dövlət başçıları səviyyəsində qarşılıqlı rəsmi səfərlər həyata keçirilmişdir. Əlbəttə ki, iqtisadi sahədə əməkdaşlıq daha da geniş vüsət alır. Azərbaycanda 70-ə yaxın Koreya şirkəti rəsmi qeydiyyatdan keçib. Bir neçə Koreya şirkəti Azərbaycanda müxtəlif infrastruktur və inşaat layihələrində iştirak edir. Bakı şəhərində yeni tikilmiş, arxitektura baxımından cəlbedici olan bəzi binaların memarlıq dizaynı Koreya şirkətləri tərəfindən təmin edilmişdir.

Milli Assambleyanın sədri Mun Hi-sanq söhbət əsnasında bildirib ki, Ural-Altay mədəniyyətinə daxil olan xalqlar həmişə ailəyə çox böyük önəm verib, böyükləri hər zaman özlərindən yüksəkdə tutublar. Buna görə də inanıram ki, biz eyni mədəniyyətə daxilik və bu əməkdaşlığımız uğurla nəticələnəcək.

Görüşdə nəqliyyat, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb.

## Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının Şura iclası olub

***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının növbəti şura iclasında 2019-cu ilin doqquz ayında görülmüş işlər müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib.***

Şura iclasında çıxış edən təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev bildirib ki, bəhs olunan dövrdə də Şərur rayonunda bütün sahələrdə inkişaf təmin olunub, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılıb, uğurlar qazanılıb. Bu nailiyyətlərin əldə edilməsində sosial-iqtisadi həyatın bütün sahələrində təmsil olunan Yeni Azərbaycan Partiyası üzvlərinin xidmətləri danılmazdır.

Vurğulanıb ki, rayon təşkilatı 2019-cu ilin ötən aylarında öz fəaliyyətini iş planına uyğun qurub. Şura və İdarə Heyətinin yığıncaqlarında əhəmiyyətli məsələlər müzakirə edilib, qərarlar qəbul olunub. Hazırda Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının 10 min 628 üzvü vardır. Doqquz ay ərzində Yeni Azərbaycan Partiyası sıralarına 108 üzv qəbul olunub ki, onların da 51 nəfərini qadınlar, 99-nu isə gənclər təşkil edir. Sözügedən dövrdə ərazi ilk partiya təşkilatlarının fəaliyyətinə daim nəzarət edilib.

Əmir Babayev qarşıda duran vəzifələrdən də danışıb. Qeyd olunub ki, ideya-siyasi iş gücləndirilməli, partiya üzvləri təmsil olunduqları təşkilatların işində daha fəal iştirak etməlidirlər. Hər bir partiya üzvü partiyanın Proqram və Nizamnaməsinin tələblərinə əməl etməli, siyasi proseslərdə, rayonda gedən quruculuq-abadlıq işlərində, yaşıllaşdırma tədbirlərində və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsində fəallıqlarını davam etdirməlidirlər.

Yığıncaqda Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova, təşkilatın Gənclər Birliyinin sədri Cahandur Məhərrəmov, rayon Mədəniyyət Şöbəsi ərazi ilk partiya təşkilatının sədri Zərifə Əliyeva və başqaları çıxış ediblər.

Yığıncaqda bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib.

**Elman MƏMMƏDOV**

## Dövlət Müstəqilliyi Günü ilə bağlı tədbir keçirilib



***Naxçıvan Dövlət Universitetində 18 oktyabr – Dövlət Müstəqilliyi Gününə həsr olunmuş "Müstəqilliyimiz əbədidir" adlı konfrans keçirilib.***

İncəsənət fakültəsinin sərgi salonunda mövzu ilə bağlı sərgiyə baxış olub. Fakültənin akt zalında davam edən tədbirdə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov müstəqilliyin ilk illərində Azərbaycan xalqının üzləşdiyi çətinliklərdən danışıb.

Bildirilib ki, dövlət müstəqilliyimiz 1991-1993-cü illərdə süquta uğramaq təhlükəsi ilə üzüzə idi. Məhz ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkəmiz parçalanmaq, məhv olmaq təhlükəsindən xilas oldu, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatda köklü islahatlara, dövlət quruculuğu prosesinə başlandı. Ulu öndərin siyasəti bu gün Prezident cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədr müavini, tarix elmləri doktoru Xəzər Hüseynov "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" adlı çıxışında bildirib ki, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin adı Azərbaycan xalqının rəmzinə, əməlləri isə hünər timsalına çevrilib. Dahi şəxsiyyətin müəllifi olduğu inkişaf strategiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirib, qlobal məkanda gedən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olub.

"Azərbaycanın müstəqillik illərində gənclərin rolu" adlı çıxışında İngilis dili müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Səma Xəlilli qeyd edib ki, ümummilli liderimiz daim gənclərə qayğı göstərib, hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasəti ilə bağlı mühüm fərman və sərəncamlar imzalayıb.

Tədbir tələbələrin ifasında bədii qiraət və musiqi nömrələri ilə davam edib.

Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunmuş tələbələrə üzvlük vəsiqələri təqdim edildikdən sonra "Ümummilli lider və Azərbaycanın dövlət müstəqilliyi" adlı videoçarx nümayiş olunub.

**Səadət ƏLİYEVA**

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir



Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər sentyabr ayında da davam etdirilmişdir. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 19 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülmüşdür.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 1209 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 374-ü əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Sentyabr ayında olduğu yer üzrə qeydiyyatla bağlı 835 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 269-u elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmiş, maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## 462 daşınmaz əmlak obyekti qeydiyyata alınıb

***Muxtar respublikada torpaq istifadəçiliyi sahəsində aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması, mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və elektron kadastr məlumat bazasının təkmilləşdirilməsi 2019-cu ilin sentyabr ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqətdə saxlanılmışdır.***

Ötən ay 15 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır. Ordubad və Culfa rayonlarında ailə təsərrüfatları ilə görüşlər keçirilmiş, əkin atlaslarına uyğun əkinlərin aparılması və torpaqlardan səmərəli istifadə ilə bağlı maarifləndirmə işi görülmüşdür.

Şahbuz rayonunda planaalma işləri davam etdirilmiş, 1656 daşınmaz əmlak obyekti plana alınmışdır. Rayonun Kolanı, Yuxarı Qışlaq və Aşağı Qışlaq bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır. Babək rayonunun Zeynəddin kəndində torpaqlardan səmərəli istifadə və onların mühafizəsinə dair monitorinqlər və aşkar olunmuş torpaqlardan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində işlər davam etdirilmiş, Ordubad və Culfa rayonlarında "Daşınmaz əmlaka mülkiyyət hüququnun yaranmasının əsasları və bələdiyyə torpaqlarından təyinatı üzrə istifadə edilməsi" mövzusunda seminarlar keçirilmişdir.

Sentyabr ayında 462 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınmış, 411 texniki sənəd hazırlanmış, yeni yaranmış 58 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. Naxçıvan şəhəri üzrə 26 küçə, 3 məhəllə və Hacıniyyət kəndində yeni ünvan lövhələri və giriş nömrə nişanlarının quraşdırılması başa çatdırılmış, 78 torpaq sahəsinin planölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 55 vətəndaşın müraciətinə baxılmış, 76 vətəndaşa elektron xidmətlər göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Melioratorlar payız suvarma mövsümünə hazırdır



Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin tabe təşkilatları tərəfindən payız-qış mövsümünə hazırlıq, torpaq sahələrinin suvarma suyu ilə təmin olunması, əhalinin içməli su təchizatının yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması üçün 2019-cu ilin sentyabr ayında da işlər davam etdirilmiş, sudan səmərəli istifadəyə nəzarət artırılmışdır.

Muxtar respublika üzrə ötən ay su istifadəçilərinə 10 milyon kubmetr suvarma suyu verilmiş, bunun müqabilində 8 min 196 hektar torpaq sahəsi suvarılmışdır. Bu dövrdə 7 kilometr beton və torpaq kanal, 21 kilometr ara arxlar, 3 kilometr kollektor lildən təmizlənmiş, 630 metr yeni içməli su xətti, 700 metr yeni suvarma xətti çəkilmişdir. Şahbuz rayonunun Türkeş kəndi ərazisindəki 300 hektar sahəni əhatə edən qapalı suvarma şəbəkəsində, Şərur və Ordubad rayonlarındakı sutəmizləyici qurğularda tikinti işləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

17 oktyabr Yoxsulluqla Beynəlxalq Mübarizə Günüdür

## Muxtar respublikada əhalinin sosial rifahı yüksəlib

***Birləşmiş Millətlər Təşkilatının 1992-ci il 22 dekabr tarixli qərarı ilə 17 oktyabr dünyada “Yoxsulluqla Beynəlxalq Mübarizə Günü” kimi qeyd olunur.***

1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra siyasi böhran və iqtisadi tənəzzül qısa zaman ərzində aradan qaldırılmış, ictimai-siyasi sabitlik bərqərar olmuş, iqtisadiyyatda mövcud geriləmə dayandırılmış və yeni inkişaf mərhələsinə keçid təmin edilmişdir. Keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanda ulu öndərin uğurla həyata keçirdiyi sosial-iqtisadi siyasət bütün sahələr üzrə inkişafı təmin etməklə yanaşı, yoxsulluğun azaldılması üçün də ciddi zəmin yaratmış, yoxsulluq səviyyəsinin minimum həddə endirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yoxsulluqla mübarizəni əsas istiqamət elan edərək əhalinin sosial müdafiəsinin gücləndirilməsi, ölkədə yoxsulluğun tamamilə aradan qaldırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirməkdədir. Bu sahədə aparılan islahatlar cari il ərzində də davam etdirilmiş, Azərbaycan Respublikasının Prezidentinin “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” 2019-cu il 25 fevral tarixli Sərəncamının icrasına uyğun olaraq 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artırılmışdır.

Naxçıvan Muxtar Respublikasında davamlı iqtisadi islahatlar iqtisadiyyatın dinamik inkişafına, makroiqtisadi göstəricilərin artımına, əhalinin rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasına əlverişli şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” məşğulluq siyasətinin əsaslarını müəyyən etməklə əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsində, müasir iqtisadi reallıqlar nəzərə alınmaqla əmək ehtiyatlarının əmək bazarına uyğunlaşdırılmasında və işaxtaranların, o cümlədən sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun artırılmasında mühüm əhəmiyyətə malikdir.

Dövlət proqramının icrası ilə bağlı muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə mütəmadi təhlillər aparılır, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək məqsədilə müəssisələrdə sorğular keçirilir. Bununla yanaşı, kompleks məşğulluq tədbirləri, o cümlədən əmək yarmarkaları, əmək bazarının tələblərinə uyğun peşə hazırlığı kursları təşkil olunur. Bu il də muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılmış, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın öyrənilməsi üçün müəssisələrdə sorğular keçirilmişdir. Bununla yanaşı, kompleks məşğulluq tədbirləri, o cümlədən əmək yarmarkaları, əmək bazarının tələblərinə uyğun peşə hazırlığı kursları təşkil olunmuşdur. Görülən işlərin nəticəsi olaraq sözügedən dövr ərzində 2150 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işə göndərilmiş, 221 nəfər ictimai işlərə cəlb edilmiş, kənd xidmət mərkəzlərində mövcud olan vakant yerlər üzrə 43 nəfər işlə təmin olunmuşdur. İşə göndərilənlərin 56 nəfərini ünvanlı sosial yardımın alınması üçün rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzlərinə müraciət edənlər, 66 nəfərini isə sağlamlıq imkanları məhdud şəxslər təşkil etmişdir. Eyni zamanda hərbi xidmətdən yeni tərxis olunan gənclərin məşğulluqlarının təmin edilməsi məqsədilə keçirilən görüşlər nəticəsində 18 gənc iqtisadiyyatın müxtəlif sahələrində işə göndərilmişdir.

Muxtar respublikada sahibkarlıq fəaliyyəti genişlənmiş, yeni istehsal müəssisələri fəaliyyətə başlamış, sənaye və kənd təsərrüfatında istehsal, əsas kapitala yönəldilən investisiyalar dəfələrlə artmışdır.

Sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar nəticəsində sosial müdafiəyə ehtiyacı olan insanlara, o cümlədən əlillərə, şəhid ailələrinə, tənha ahıllara, habelə sağlamlıq imkanları məhdud uşaqlara göstərilən sosial xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmiş, bu istiqamətdə həyata keçirilən tədbirlər fasiləsiz xarakter almışdır. Sağlamlıq imkanları məhdud şəxslərin reabilitasiyası məqsədilə də bir sıra tədbirlər görülmüşdür. Muxtar respublikada yaradılan yeni iş yerləri hesabına aztəminatlı ailələrdə əmək qabiliyyətli ailə üzvlərinin fəal əməyə cəlb olunması nəticəsində ehtiyac meyarının və muxtar respublika əhalisinin davamlı olaraq artmasına baxmayaraq, sosial yardım alan əhalinin sayı ilbəil azalmışdır. Həmçinin cari ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunması ilə bağlı il ərzində 100 ailənin özünüməşğulluğu təmin edilmiş, onların ailə təsərrüfatlarının formalaşdırılmasına köməklik göstərilmişdir.

Muxtar respublikada iqtisadi və sosial əhəmiyyətli infrastruktur layihələrinin icrası, məşğulluq səviyyəsinin yüksəldilməsi, sosial xidmətlərin həcminin və keyfiyyətinin artması, makroiqtisadi sabitliyin qorunub saxlanması bütün sahələrin davamlı inkişafını bundan sonra da təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada pensiyaların artımlarla birlikdə maliyyələşdirilməsi təmin olunmuşdur

*Muxtar respublikamızda cəmiyyətin həssas qrupu sayılan pensiyaçıların rahatlığının təmin edilməsi, onların rifah halının yaxşılaşdırılması tədbirləri mütəmadi olaraq diqqət mərkəzində saxlanılır.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikada əməkhaqları, pensiya və müavinətlər hər ay vaxtında ödənilir. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu verilən tapşırıqların yerinə yetirilməsi üçün mütəmadi olaraq tədbirlər görür. Belə ki, fond tərəfindən muxtar respublika üzrə 2019-cu il oktyabr ayının pensiya ödənişi vaxtından əvvəl maliyyələşdirilib, əmək pensiyaçılarına pensiyalar plastik bankomat kartları və poçt bölmələri vasitəsilə artımla birlikdə ödənilib. Həmçinin əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi təmin edilib, həmin şəxslərin şəxsi hesablarına və ya poçt ünvanlarına vəsait köçürülüb.

Məlumat üçün bildirək ki, fondun yerli orqanları tərəfindən 1 oktyabr 2019-cu il tarixdən əmək pensiyalarının minimum məbləği 160 manatdan 200 manata çatdırılmış və muxtar respublika üzrə, ümumilikdə, 26 min 758 əmək pensiyaçısının pensiyasında artım olmuşdur. Bu artımların ödənilməsində fondun büdcəsindən 772 min 300 manat əlavə vəsait yönəldilmişdir.

Muxtar respublikada pensiyaçılara yüksək səviyyədə xidmət göstərilməsi üçün pensiyaların ödənilməsi sistemində mütərəqqi üsullardan istifadə olunur. Hazırda bütün növ əmək pensiyaçıları plastik kartlar vasitəsilə öz pensiyalarını istənilən vaxt rahat şəkildə əldə edirlər. Eyni zamanda kənd yerlərində yaşayan pensiyaçıların rayon mərkəzinə getmədən pensiyalarını əldə etməsi üçün də müvafiq tədbirlər görülüb, onların istəkləri nəzərə alınmaqla pensiyalarının poçt bölmələri vasitəsilə ödənilməsi təşkil olunub.

Azərbaycan Respublikası Prezidentinin ölkədə sosial rifah halının yaxşılaşdırılmasına, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən qərarların icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən bundan sonra da müvafiq işlər həyata keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

***Hindistanlı iş adamı Debarçan Bisvas 15-17 sentyabr tarixlərdə Naxçıvan Muxtar Respublikasında səfərdə olub. O, ölkəsinə qayıtdıqdan sonra muxtar respublika ilə bağlı təəssüratlarını qələmə alıb. Həmin yazını təqdim edirik.***

*Naxçıvan dünya mediasında*

## Naxçıvan: isti ürəkli muxtar respublika



Ailəmlə zaman keçirmək üçün Hindistana getmədən öncə, Dubayda olduğum son bir ay ərzində Qafqazda bir neçə həftə zaman keçirmək qərarına gəldim. Azərbaycana səfər planlaşdırarkən tək bildiyim şəhər Bakı idi. Ancaq mənim maraq dairəm son dövrlərdə muxtar bölgələr olmuşdu. Araşdırma edərkən Naxçıvan Muxtar Respublikası diqqətimi daha çox çəkdi. Zamanımın az olmasına baxmayaraq, Naxçıvana səyahət etməyə qərar verdim. Mənim üçün Bakıdan Naxçıvana bilet almaq və otel rezervasiya saytlarından biri vasitəsilə “Təbriz” otelində yer sifariş etmək çox asan oldu.



Haradasa, gecə saat 1-də Naxçıvan Beynəlxalq Hava Limanına endik. İngilis dilini bilən gənc oğlan otelə getmək üçün taksi xidmətini təklif etdi. 15 dəqiqə uzaqlıqdakı şəhər mərkəzinə getməyə cəmi 5 manat xərclədim. Hindistandan bu torpaqları ziyarət etmək məqsədilə gəlmiş insana yerli sakinlərin göstərdiyi diqqət mənə çox təsir etdi.

Növbəti gün Naxçıvan qaymağı, hansı ki Hindistana qayıtdıqdan sonra belə, ondan ötrü darıxıram, yerli çörək, mürəbbə və pendirlə səhər yeməyi yedim. Oteldə mənə bələdçilik edəcək Kamal Yahyalı ilə tanış oldum. Motivasiyası yüksək və çox intellektual gənc olan Kamalla növbəti günlərdə hara gedəcəyimizlə bağlı planlama etdik. Biz qərara gəldik ki, Naxçıvanı kəşf etməyə öz gölləri və bal istehsalı ilə məşhur olan Batabatdan başlayaq. Yol boyunca Kamal Naxçıvanda gənc nəslin inkişafı ilə bağlı görülən işlər barədə qısa və dəyərli məlumatlar verdi. Kamalın müxtəlif dinlər, həmçinin hinduizm və dünya siyasəti ilə bağlı dərin məlumatlı olması məni heyrətləndirdi.



Batabatdakı göllər insan əli dəyməmiş, saf və təmizdir. Bəzən ətrafınızda heç kəsin olmadığı yerlərə getmək insana çox hüzur verir. Ola bilsin ki, buradakı insanlara xoşbəxtlik və hüzur verən də elə əsrarəngiz təbiət mənzərələridir. Üzən adası ilə məşhur Batabat gölünü seyr etdik. Naxçıvanın məşhur, saf və təbii balını satan yaşlı arıçı ilə tanışlıq da mənim üçün çox xoş oldu.



Döyüş Şöhrəti Muzeyi və kitab-kafe diqqətimi daha çox çəkdi. Növbəti dayanacağımız duz mədənlərinin əsasında yaradılan müalicə mərkəzi – Duzdağ idi. Bura bronxit və astma xəstəliyi üçün ciddi müalicəvi effektə malikdir. Mənə elə gəlir ki, Duzdağ Fizioterapiya Mərkəzində qalmaq turistlər üçün əvəzedilməzdir. Növbəti Naxçıvan səfərində buranı mütləq ziyarət edəcəyəm.






Sakitləşdirici duz mədənlərinin olduğu tuneldə gəzdikdən sonra Qarabağlar türbəsinin yerləşdiyi Qarabağlar kəndinə getməyə qərar verdik. Türbə, sanki müxtəlifrəngli və naxışlı xalçalarla örtülmüş möhtəşəm memarlıq nümunəsidir. Firuzəyi şirli və sadə kərpicdən ibarət olan kombinasiya şəbəkəsi, müqəddəs “Qurani-Kərim”in ayələrinin əks olunduğu kitabə adamı heyran edir. Türbənin gözəlliyini seyr etdikdən sonra Naxçıvan şəhərinə qayıtdıq. Bir məsələni xüsusilə vurğulayım ki, Naxçıvan şəhərində insan tarixlə, qədim dünya ilə baş-başa qalır. Gözəl hökumət binalarından Möminə xatın abidəsinə, Naxçıvanqaladan Nuhun möhtəşəm türbəsinə, Şərq hamamlarına qədər bir çox gözəllik bu şəhərdə cəmlənib. Naxçıvanın küçələri geniş, təmiz və abaddır. Ona görə də şəhərdə gəzmək elə özü bir zövqdür. Burada yemək də, demək olar ki, Azərbaycanın digər yerlərindən həm ucuz, həm də dadlıdır.



Növbəti gün biz Azərbaycanın “Macchu Pichusu” kimi tanınan Əlincə qalasına yola düşdük. Günəş çıxmazdan əvvəl qalaya qalxdıq. Qaladan açılan mənzərə, qarşıdan görünən möhtəşəm Haçadağ bütün yorğunluğu unutdurur.

Çəhrayı daşdan tikilmiş Gülüstan türbəsi ilə tanışlıq, Gülüstan kəndində həyatımda yediyim ən dadlı şaftalı və digər meyvələrin dadına baxmaq, sadəcə, Naxçıvana heyranlığımı getdikcə artırırdı. Bir məsələni də deyim ki, Naxçıvanın təbii meyvələri, böyük kənd təsərrüfatı potensialı var.

Ordubada gedərkən yolüstü günorta yeməyi üçün bir evdə dayandıq. Ev sahibləri çox qonaqpərvər idilər. Təzə meyvə-tərəvəz, pendir və turşu, dolma, bozpört Naxçıvan mətbəxinin zənginliyindən xəbər verirdi. Naxçıvanda ailələrin qonaqpərvərliyinə, mədəniyyətinə və ənənələrinə heyran oldum.

Ordubadla tanışlıqdan sonra Darıdağ Müalicə Mərkəzinə getdik. Darıdağ dünyada çox nadir yerlərdən biridir ki, burada arsenli isti su ilə bir çox xəstəliklər müalicə edilir. Şəhərə qayıtmazdan əvvəl 15 dəqiqə bu şəfalı suda qaldım.

Naxçıvanın həm bu qədər toxunulmaz qaldığına, eyni zamanda belə müasir görünüşünə görə çox heyrətləndim. Blokadada yaşamaqla yanaşı, həm də inkişaf etmək, turistlərə qarşı çox istiqanlı olmaq düşünürəm ki, yalnız Naxçıvanda var. İnsanlar çox səmimidir. Dost qazanmaq bir gülümsəmə kimidir. Mən bura paranoyak səyahətçi kimi gəldim, amma çox gözəl xatirələr və ürəyimdə sevgi ilə geri döndüm. Qısa zamanda Naxçıvana yenidən səfər etməyi düşünürəm. Qədim, müasir və gözəl Naxçıvanı möhtəşəm insanların yaşadığı diyar olaraq dünyaya tanıtmaq üçün səylərimi əsirgəməyəcəyəm.

***Debarchan Bisvas Hindistan***

# “Müstəqillik işığında” adlı yubiley sərgisi açılıb





*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda muxtar respublikanın yaradılmasının 95 illiyinə həsr olunmuş Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov və Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərlinin 18 oktyabr – Dövlət Müstəqilliyi Günü ilə bağlı “Müstəqillik işığında” adlı 65 illik yubiley sərgisi açılıb.*

Tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, müstəqillik illərində muxtar respublikada rəssamlıq sənətinin inkişafı üçün lazımi tədbirlər həyata keçirilib, gənc rəssamlar nəslinin formalaşması istiqamətində də məqsədyönlü işlər görülüb, emalatxanalar tikilərək istifadəyə verilib, onların fərdi sərgiləri təşkil edilib, festivallarda iştirakları təmin olunub.

Qeyd edilib ki, bugünkü rəngarəng sərgi dəyərli sənət adamları – Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinovun və Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərlinin 65 illik yubileyləri ilə də əlamətdardır. Müasir Naxçıvan rəssamlıq məktəbinin formalaşmasında hər iki rəssamın danılmaz xidmətləri vardır.

Yubilyar rəssamların yaradıcılıq yolları haqqında ətraflı məlumat verən Ülviyyə Həmzəyeva bildirib ki, bu gün açılan sərgidə Telman Abdinovun müxtəlif janrlarda 62, Əli Səfərlinin isə 54 rəsm əsəri nümayiş olunur. Sərgidə Naxçıvanın tarixi şəxsiyyətlərinin portretlərinə, eləcə də doğma yurdumuzun gözəlliklərinin, mədəniyyətimizin, adət-ənənələrimizin tərənnümünə geniş yer verilib.

Sonra yubilyarlara Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşəkkürnamələri təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid hər iki yubilyarı təbrik edərək bildirib ki, Rəssamlar Birliyi özünəməxsus fəaliyyəti ilə muxtar respublikanın yaradılmasının 95 illiyinə dəyərli töhfələr verməkdədir. Cari ildə artıq bir neçə dəfədir ki, Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda naxçıvanlı rəssamların rəsm əsərlərindən ibarət sərginin şahidi oluruq. Bu gün yubiley tədbiri keçirilən rəssamların əsərlərindən bəzilərinin Naxçıvan Muxtar Respublikasının 95 illiyi ilə bağlı keçirilən Rəsm Festivalına həsr edilmiş, nəşrə hazırlanan albom-kataloqa əlavə olunması nəzərdə tutulub. Bu, onların yaradıcılığına verilən yüksək dəyər kimi qiymətləndirilir. Hər iki rəssamın yaradıcılığı çoxşaxəlidir və çəkdikləri rəsmlərdə muxtar respublikamızın tarixi şəxsiyyətləri, ecazkar təbiəti dolğun şəkildə öz əksini tapır. Əminliklə demək olar ki, onlar gələcəkdə də yeni-yeni yaradıcılıq uğurları ilə muxtar respublikamızın mədəniyyətinə, incəsənətinə daha böyük töhfələr verəcəklər.

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova yubilyarları təbrik edərək bildirib ki, Naxçıvan zəngin mədəniyyəti və incəsənəti ilə xalqımızın tarixində hər zaman əvəzsiz rol oynayıb. Blokada şəraitində olmasına baxmayaraq, müstəqillik illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikamızda bütün sahələr kimi təsviri sənətin inkişafı istiqamətində də ardıcıl tədbirlər görülüb, sənət adamlarına fəaliyyətlərini qurmaları üçün geniş şərait yaradılıb.

Sonra “Naxçıvan” Universitetinin rektoru, professor İsmayıl Əliyev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Elbrus İsayev, Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulunun köməkçisi Nejla Kaya, Xalq rəssamı Hüseynqulu Əliyev və Xalq artisti Kamran Quliyev yubilyarların sənət fəaliyyətlərindən söz açıb, onları təbrik ediblər.

Sərgiləri təşkil edilən rəssamlar yaradıcılıqlarına verilən yüksək qiymətə görə Ali Məclisin Sədrinə dərin minnətdarlıqlarını bildiriblər.

Sonra sərgiyə baxış olub.

Qeyd edək ki, 116 rəsm əsərinin nümayiş olunduğu “Müstəqillik işığında” adlı yubiley sərgisi oktyabrın 23-dək davam edəcək.

**✍ Nail ƏSGƏROV**

# Akademik İsa Həbibbəylinin 70 illik yubileyi münasibətilə açıq dərs keçilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində “Akademik İsa Həbibbəyli alim və ictimai xadim kimi” mövzusunda açıq dərs keçilib.***



Tədbiri giriş sözü ilə mərkəzin elmi katibi Nihad Tarverdiyev açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Tədbirlər Planına əsasən akademik İsa Həbibbəylinin 70 illik yubileyi münasibətilə ali təhsil müəssisələrinin Azərbaycan dili və ədəbiyyatı ixtisasının tələbələrinin iştirakı ilə açıq dərs keçilir.

Bildirilib ki, ölkəmizin ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan torpağı tarixin müəyyən dövrlərində böyük şəxsiyyətlər yetişdirib. Belə görkəmli şəxsiyyətlərdən biri, alim və ictimai xadim İsa Həbibbəylidir. Onun dövlətçiliyimizin möhkəmləndirilməsində, Azərbaycançılıq ideologiyasının təbliğində, elm və təhsilin inkişafında xidmətləri misilsizdir.

Azərbaycan Respublikasının Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor Hüseyn Həşimli çıxış edərək Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, Əməkdar elm xadimi, akademik İsa Həbibbəylinin elmi-ədəbi və ictimai-siyasi fikrin inkişafında böyük xidmətlərindən danışıb.

Qeyd edilib ki, hər zaman dərin biliyi, peşəkarlığı, yüksək elmi, intellektual səviyyəsi, böyük vətəndaşlıq mövqeyi ilə fərqlənən İsa Həbibbəyli elmi yaradıcılığının çox hissəsini doğma diyarına həsr edib, Naxçıvanda elm və təhsilin, ədəbiyyat və mədəniyyətin inkişafına xidmət edib. O, hələ tələbəlik illərindən həm elmi, həm də ictimai sahədə ilk uğurlu addımlarını atıb. Bir-birindən məsul vəzifələrə irəli çəkilsə də, elmi fəaliyyətini yüksək səviyyədə və dolğun şəkildə davam etdirib.

Vurğulanıb ki, akademik İsa Həbibbəyli, ilk növbədə, tanınmış pedaqoq, elm təşkilatçısıdır. Görkəmli ictimai xadimin ömrünün böyük bir hissəsi Naxçıvan Dövlət Universiteti ilə bağlı olub. 20 ilə yaxın bir müddətdə bu universitetin rektoru olub, universitetin inkişafında, ölkəmizdə və dünyada tanınmasında böyük rol oynayıb. Elmlə ideologiyanı, siyasi baxışları sintez edən, hadisələrə obyektiv münasibət bildirən alimin yaradıcılığının ana xəttini ümummilli liderimiz Heydər Əliyevin, onun layiqli davamçısı Prezident cənab İlham Əliyevin ideyaları təşkil edir.

Diqqətə çatdırılıb ki, Cəlil Məmmədquluzadə yaradıcılığının böyük tədqiqatçısı çoxsaylı monoqrafiya, kitab, elmi məqalə, publisistik yazıların müəllifi, görkəmli alim İsa Həbibbəyli əsl elm fədaisidir. Əsərləri Azərbaycan dili ilə yanaşı, ingilis, fransız, rus, türk, ərəb, fars, urdu, bolqar və macar, litva və sair dillərdə çap olunan, beynəlxalq aləmdə də tanınan böyük ziyalı İsa Həbibbəyli respublikamızı, elmimizi xarici ölkələrdə də layaqətlə təmsil edir. Elmi fəaliyyəti və xidmətləri Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilən alim “Əməkdar elm xadimi” fəxri adına layiq görülüb, “Şöhrət” və “Şərəf” ordenləri, bu günlərdə isə dövlət başçısının sərəncamı ilə 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunub.

Hüseyn Həşimli akademik İsa Həbibbəylinin Azərbaycan filologiyasına yeni nəfəs gətirən böyük alim, bugünkü elmimizə istiqamət verən tədqiqatçı, xalqına və dövlətinə sədaqətlə xidmət edən, ictimai-siyasi xadim kimi gənc nəslə örnək olduğunu vurğulayıb.

Sonra tədbir iştirakçıları akademik İsa Həbibbəylinin kitablarından ibarət sərgi ilə tanış olublar.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvan Müəllimlər İnstitutu beynəlxalq təhsil sərgisində

Naxçıvan Müəllimlər İnstitutu elm və təhsilin bütün sahələrində yüksək nailiyyətlər əldə etməkdədir. Beynəlxalq əlaqələrin inkişafı və əcnəbi tələbələrin qəbulu institutun qarşıya qoyduğu mühüm məsələlərdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Ölkəmizdə və xaricdə təşkil olunan müxtəlif elm və təhsil tədbirlərində iştirak etmək də bu fəaliyyətin bir istiqamətini təşkil edir.

Bu günlərdə institutun iştirak etdiyi belə tədbirlərdən biri dünyanın ən böyük təhsil sərgilərindən olan Akare Beynəlxalq Təhsil Sərgisi olmuşdur. 11-13 oktyabr 2019-cu il tarixlərdə Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində keçirilmiş bu növbəti təhsil sərgisində Naxçıvan Müəllimlər İnstitutunu Nicat Yaqubov təmsil edib.

Qeyd edək ki, ABŞ, İngiltərə, Avstraliya, Kanada və başqa ölkələrin nüfuzlu universitetlərinin təmsil olunduğu sərgi, ümumilikdə, 30 fərqli ölkədən 200 universitet və təhsil qurumunun iştirakı ilə keçirilib.

Sərgi zamanı instituta müraciət şərtləri, təhsil haqqı, ölkənin təhsil sistemi və sair haqqında iştirakçılara ətraflı məlumat verilib, çoxsaylı müraciətlər cavablandırılıb.

Sərgidə, eyni zamanda institutun bakalavriatura, magistratura və doktorantura proqramları haqqında ətraflı məlumat verilib. Bununla yanaşı, sərgi müddətində institutun gələcək beynəlxalq əlaqələrinin inkişafı baxımından məsləhətləşmələr aparılıb.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 18 oktyabr-19 noyabr 2019-cu il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği “şəxsi kabinet” vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın “Naxçıvanbank” ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az elektron poçt* ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|
| **1. Naxçıvan Musiqi Kolleci üzrə:** | | | | |
| 680117 | Xalq çalğı alətləri (kamança) | 1 | 960 | |
| 680119 | Xalq çalğı alətləri (qanun) | 1 | 1020 | |
| 680130 | İnstrumental ifaçılıq (skripka) | 1 | 1038 | |
| **Cəmi:** | | **3 yer** | | |
| **2. Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **2.1. Naxçıvan Şəhər Məmməd Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681136 | Qanun | 1 | 12 | |
| **2.2. Naxçıvan Şəhər Səfər Rəcəbov adına 3 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681344 | Skripka | 2 | 38 | |
| **2.3. Naxçıvan Şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681436 | Qanun | 1 | 24 | |
| **2.4. Naxçıvan Şəhər 5 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681640 | Nağara | 1 | 18 | |
| 681644 | Skripka | 1 | 6 | |
| **2.5. Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbi** | | | | |
| 681214 | Fleyta | 1 | 8 | |
| 681225 | Xoreoqrafiya | 3 | 59 | |
| 681236 | Qanun | 1 | 24 | |
| 681237 | Qarmon | 1 | 24 | |
| 681243 | Saz | 1 | 6 | |
| 681244 | Skripka | 1 | 22 | |
| 681248 | Violonçel | 1 | 8 | |
| **2.6. Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi** | | | | |
| 681536 | Qanun | 1 | 8 | |
| 681537 | Qarmon | 1 | 24 | |
| 681546 | Tar | 1 | 14 | |
| **Cəmi:** | | **18 yer** | | |

| | | | | |
|---|---|---|---|---|
| **3. Şərur Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **3.1. Şərur Şəhər Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbi** | | | | |
| 682112 | Balaban | 1 | 12 | |
| 682115 | Fortepiano | 2 | 30 | |
| 682125 | Xoreoqrafiya | 2 | 38 | |
| 682132 | Kamança | 3 | 68 | |
| 682134 | Klarnet | 1 | 4 | |
| 682135 | Konsertmeyster (fortepiano) | 3 | 52 | |
| 682136 | Qanun | 1 | 16 | |
| 682137 | Qarmon | 2 | 27 | |
| 682140 | Nağara | 2 | 32 | |
| 682143 | Saz | 2 | 28 | |
| 682146 | Tar | 3 | 56 | |
| **3.2. Aralıq Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682432 | Kamança | 1 | 12 | |
| 682435 | Konsertmeyster (fortepiano) | 2 | 32 | |
| 682437 | Qarmon | 1 | 24 | |
| 682440 | Nağara | 2 | 26 | |
| 682446 | Tar | 1 | 8 | |
| **3.3. Çərçiboğan Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682212 | Balaban | 1 | 16 | |
| 682215 | Fortepiano | 3 | 72 | |
| 682232 | Kamança | 1 | 24 | |
| 682235 | Konsertmeyster (fortepiano) | 3 | 60 | |
| 682236 | Qanun | 2 | 32 | |
| 682238 | Musiqi ədəbiyyatı | 1 | 24 | |
| 682240 | Nağara | 2 | 32 | |
| 682243 | Saz | 1 | 10 | |
| 682245 | Solfecio | 1 | 15 | |
| 682246 | Tar | 1 | 24 | |
| 682247 | Truba | 1 | 24 | |
| **3.4. Ələkli Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682332 | Kamança | 2 | 28 | |
| 682335 | Konsertmeyster (fortepiano) | 1 | 24 | |
| 682337 | Qarmon | 1 | 24 | |
| 682338 | Musiqi ədəbiyyatı | 1 | 10 | |
| 682343 | Saz | 1 | 10 | |
| 682346 | Tar | 1 | 24 | |
| **3.5. Şəhriyar Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682615 | Fortepiano | 2 | 48 | |
| 682623 | Xor | 1 | 12 | |
| 682632 | Kamança | 1 | 24 | |
| 682635 | Konsertmeyster (fortepiano) | 2 | 48 | |
| 682637 | Qarmon | 2 | 27 | |
| 682640 | Nağara | 2 | 38 | |
| 682646 | Tar | 1 | 24 | |
| **3.6. Yuxarı Daşarx Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682512 | Balaban | 2 | 28 | |
| 682515 | Fortepiano | 2 | 36 | |
| 682532 | Kamança | 1 | 20 | |
| 682535 | Konsertmeyster (fortepiano) | 2 | 36 | |
| 682537 | Qarmon | 2 | 30 | |
| 682538 | Musiqi ədəbiyyatı | 1 | 8 | |
| 682540 | Nağara | 1 | 24 | |
| 682546 | Tar | 4 | 80 | |
| **Cəmi:** | | **79 yer** | | |
| **4. Babək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **4.1. Babək Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 683115 | Fortepiano | 1 | 14 | |
| 683122 | Xanəndəlik | 1 | 10 | |
| 683140 | Nağara | 1 | 10 | |
| 683143 | Saz | 1 | 6 | |
| **4.2. Cəhri Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683322 | Xanəndəlik | 1 | 12 | |
| 683243 | Saz | 1 | 6 | |
| **4.3. Nehrəm Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683215 | Fortepiano | 1 | 24 | |
| 683232 | Kamança | 1 | 16 | |
| 683240 | Nağara | 1 | 18 | |
| 683246 | Tar | 1 | 6 | |
| **4.4. Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683437 | Qarmon | 1 | 15 | |
| 683440 | Nağara | 1 | 22 | |
| 683443 | Saz | 1 | 16 | |
| 683446 | Tar | 1 | 24 | |
| **4.5. Zeynəddin Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683536 | Qanun | 1 | 16 | |
| 683540 | Nağara | 1 | 6 | |
| **Cəmi:** | | **16 yer** | | |

| | | | | |
|---|---|---|---|---|
| **5. Ordubad Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **5.1. Ordubad Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 684115 | Fortepiano | 1 | 20 | |
| 684122 | Xanəndəlik | 1 | 12 | |
| 684123 | Xor | 1 | 19 | |
| 684134 | Klarnet | 1 | 8 | |
| 684135 | Konsertmeyster (fortepiano) | 3 | 63 | |
| 684137 | Qarmon | 1 | 24 | |
| 684149 | Vokal | 1 | 6 | |
| **5.2. Vənənd Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 684215 | Fortepiano | 2 | 46 | |
| 684223 | Xor | 1 | 9 | |
| 684234 | Klarnet | 1 | 14 | |
| 684235 | Konsertmeyster (fortepiano) | 1 | 24 | |
| 684237 | Qarmon | 1 | 12 | |
| 684238 | Musiqi ədəbiyyatı | 1 | 24 | |
| 684240 | Nağara | 1 | 14 | |
| 684246 | Tar | 2 | 36 | |
| **Cəmi:** | | **19 yer** | | |
| **6. Culfa Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **6.1. Culfa Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 685112 | Balaban | 1 | 4 | |
| 685132 | Kamança | 1 | 16 | |
| 685135 | Konsertmeyster (fortepiano) | 1 | 12 | |
| 685137 | Qarmon | 2 | 45 | |
| 685140 | Nağara | 1 | 14 | |
| **6.2. Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 685215 | Fortepiano | 2 | 40 | |
| 685232 | Kamança | 2 | 44 | |
| 685235 | Konsertmeyster (fortepiano) | 2 | 26 | |
| 685240 | Nağara | 2 | 34 | |
| 685244 | Skripka | 1 | 18 | |
| 685246 | Tar | 1 | 8 | |
| **Cəmi:** | | **16 yer** | | |
| **7. Kəngərli Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **7.1. Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 686132 | Kamança | 1 | 8 | |
| 686144 | Skripka | 1 | 14 | |
| 686147 | Truba | 1 | 24 | |
| **7.2. Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 686235 | Konsertmeyster (fortepiano) | 1 | 15 | |
| 686237 | Qarmon | 2 | 30 | |
| 686240 | Nağara | 2 | 26 | |
| 686243 | Saz | 2 | 28 | |
| **Cəmi:** | | **10 yer** | | |
| **8. Şahbuz Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **8.1. Şahbuz Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 687115 | Fortepiano | 1 | 22 | |
| 687122 | Xanəndəlik | 1 | 6 | |
| 687135 | Konsertmeyster (fortepiano) | 1 | 8 | |
| 687143 | Saz | 2 | 33 | |
| 687146 | Tar | 1 | 8 | |
| **8.2. Kolanı Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 687232 | Kamança | 1 | 4 | |
| 687235 | Konsertmeyster (fortepiano) | 1 | 10 | |
| 687244 | Skripka | 1 | 10 | |
| **Cəmi:** | | **9 yer** | | |
| **9. Sədərək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **9.1. Sədərək Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 688112 | Balaban | 1 | 24 | |
| 688115 | Fortepiano | 1 | 14 | |
| 688132 | Kamança | 3 | 56 | |
| 688134 | Klarnet | 1 | 18 | |
| 688135 | Konsertmeyster (fortepiano) | 4 | 92 | |
| 688137 | Qarmon | 1 | 18 | |
| 688138 | Musiqi ədəbiyyatı | 1 | 18 | |
| 688143 | Saz | 1 | 14 | |
| 688146 | Tar | 2 | 32 | |
| 688149 | Vokal | 1 | 10 | |
| **Cəmi:** | | **16 yer** | | |
| **Yekun:** | | **186 yer** | | |

***İtmişdir***

Şərur şəhəri, Heydər Əliyev prospekti, bina 34, mənzil 27-də yaşayan Seyidova Rahilə Miryaqub qızının adına olan 01/562 nömrəli qeydiyyat vəsiqəsi və 577 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 707